BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4* *Təbiət elmləri seriyası* *2011*

**UDK. 551.48**

# LƏNKƏRAN TƏİBİİ VİLAYƏTİNDƏ ÇAY AXIMININ FORMALAŞMASINA LANDŞAFTLARIN TƏSİRİ

**İ.S.ƏLİYEVA, S.M.İSGƏNDƏROV**
***Bakı Dövlət Universiteti***
***Irada.Əliyeva58@mail.ru.***

*Məqalədə təhlil əsasında landşaft tipləri və onların çay axımına təsiri aşkar olunmuşdur. Ayrı-ayrı çay hövzələrində ən çox yayılmış landşaft növü müəyyən edilmişdir.*

**Açar sözlər:** çay, axım, hövzə, landşaft tipi.

Lənkəran təbii vilayəti Azərbaycan respublikasının digər bölgələrindən fiziki-coğrafi və iqlim şəraitinə görə kəskin fərqlənir. Burada bir-birinə paralel yerləşən Talış, Burovar, Peştəsər silsilələri və dəniz sahili Lənkəran ovalığı çay axımının formalaşmasında landşaftların təsirinin böyük olduğunu göstərir. Bu təbii vilayət sıx çay şəbəkəsi ilə də fərqlənir. Mənbəyi Talış dağlarının suayrıcısında yerləşən çaylar üstünlük təşkil edir. Çaylar öz mənbəyini Talış, Peştəsər, və Burovar silsilələrinin ətəklərindən götürür və müxtəlif landşaft tiplərindən keçərək Xəzər dənizinə tökülürlər.

Lənkəran vilayətinin spesifik təbii iqlim şəraitindən və landşaft növlərindən asılı olaraq çayların əksəriyyəti başlıca olaraq yağış suları ilə (70-90%) qidalanırlar. Yalnız Talış silsiləsindən axan çayların (Viləşçay, Lənkərançay) qidalanmasında qar suları (3-6%) iştirak edir. Talış silsiləsindən axan çaylarda yeraltı sularla qidalanma sabit olub, 20-25% təşkil etdiyi halda, Peştəsər və Burovar silsilələrindən axan çaylarda 10-15%-dən artıq olmur. Nəticədə yay aylarında ərazi çaylarının bəzilərinin axımı ovalığın bataqlıq hissələrində itir və çoxu quruyur [5].

Təbii vilayətdə yağıntıların miqdarına uyğun olaraq, çay şəbəkəsinin ən böyük sıxlığı (0.60-2.40km/km$^2$) 500-1000 m yüksəklik zonasında müşahidə olunur. Həmin yüksəklikdən yuxarı çay şəbəkəsinin sıxlığı azalır. Bu isə həmin istiqamətdə yağıntıların azalması ilə izah edilir.

Ərazidə gursulu dövr ilin soyuq yarısında, azsulu dövr isə yayda müşahidə olunur. Elə bu səbəbdən də Azərbaycanın ən rütubətli bölgəsi sayılan bu

regionda kənd təsərrüfatı bitkilərini suvarmasız inkişaf etdirmək mümkün olmur. Yay aylarında çaylarda illik axım həcminin 7-10%-i keçir, bu da əkin sahələrinin suya olan tələbatını ödəmir. İllik axımın mövsümlər üzrə paylanması yağıntıların rejiminə müvafiq olsa da, suvarma rejiminə uyğun gəlmir və müxtəlif su təsərrüfatı tədbirlərinin aparılması tələb olunur. İlin soyuq aylarında axımın 60-65 %-i, intensiv suvarma dövründə isə (iyul - avqust) 3-5%-i keçir. Regionun şimalında çaylarda maksimal sülb axımı yazda 40-60%, cənub hissədə 55-80% olmaqla, payız fəslinə təsadüf edir.

Aparılan tədqiqatlara görə təbii vilayətdə 6 landşaft tipi və bu tiplər daxilində yarımtiplər mövcuddur [1]. Ərazidəki çay hövzələrində üstünlük təşkil edən landşaft tipləri, onların sahəsi və həmin tip daxilindəki yarımtiplərin sayı hesablanmışdır (cədvəl 1). Vilayət ərazisində çay sutoplayıcılarından sahəsinə və landşaft növlərinin sayına görə ən çox yayılmış landşaft tipi dağarası düzənlik və ovalıqların çəmən – meşə landşaftlarıdır (F=0.10-0.92; N=7). Sonra isə kəskin parçalanmış orta dağlığın enliyarpaqlı meşə və meşədən sonrakı çəmən – kolluq landşaftlarıdır (F=0.17-0.45; N=4). Bu landşaft tipləri digərləri ilə müqayisədə daha sıx çay şəbəkəsinə malikdir. Bura Viləşçay, Lənkərançay, Bolqarçay, Alaşaçay, Şərətük, Ləkərçay, Vəşərü, Təngərü, İstisuçay və başqa çay hövzələrinin xeyli hissəsi aiddir. Çay şəbəkəsinin zəif olduğu landşaft tipləri orta və zəif parçalanmış dağarası düzənlik və ovalıqların yarımsəhra landşaftları və kəskin orta parçalanmış dağətəklərinin çöl və quru çölləridir.

Lənkəran təbii vilayətində çay axımının formalaşmasına landşaftların təsiri ayrı-ayrı çay hövzələrinin timsalında araşdırılmışdır. Təbii vilayət çayları arasında uzunluğu (134 km) və sutoplayıcı hövzənin sahəsinə görə (2170 km$^2$) birinci yerdə Bolqarçay durur. Bu çayın mənbə hissəsi kəskin parçalanmış orta dağlığın dağ-kserofit landşaftları tipində yerləşir. Çayın yuxarı axınının çox hissəsi kəskin parçalanmış orta dağlığın enliyarpaqlı meşə və meşədən sonrakı çəmən-kolluq landşaftları ilə hüdudlanır. Çayın orta və aşağı axını kəskin və orta parçalanmış dağətəklərinin çöl (qismən meşə-çöl) və quru-çöl landşaftları ilə səciyyələnir [1, 3]. Çay kor sonluqla qurtarır.

Vilayətdə sutoplayıcısının sahəsinə (1100 km$^2$) və sululuğuna görə (14,2 m$^3$/san) ikinci yerdə Lənkərançay durur. Lənkərançayın hidroqrafik şəbəkəsi yaxşı inkişaf etmişdir.

Çayın mənbəyi kəskin parçalanmış orta dağlığın dağ kserofit landşaft tipində yerləşir. Çay hövzəsinə atmosfer yağıntılarının çox düşməsi, dağlarda səth axımının güclü olması və hövzənin əsas hissələrində zəif sukeçirən gilli süxurların yayılması və çay hövzəsində ən çox ərazi tutan kəskin parçalanmış orta dağlığın enliyarpaqlı meşə və meşədən sonrakı çəmən-kolluq landşaft tipinin (0,45 km$^2$) üstün olmasıdır. Çayın çoxlu qolları var və çayın qollarının çoxunun başlanğıcı bu landşaft zonasında formalaşır.

Çayın sağ qolu Konyovçay, Vəşəri və Ləkərçayın başlanğıcı kəskin

parçalanmış orta dağlığın dağ-kserofit landşaftları tipində yerləşir. Daha sonra Ləkərçay hövzəsinin çox hissəsi kəskin parçalanmış orta dağlığın enliyarpaqlı meşə və meşədən sonrakı çəmən-kolluq landşaftları tipi daxilindədir. Ləkərçay hövzəsi qeyd edilən landşaft tipindən sonra mənsəbə doğru orta parçalanmış dağarası düzənliklər və ovalıqların çəmən-meşə landşaft tipi ilə hüdudlanır [1, 2].

Lənkərançay payız-qış aylarında gursulu, yay aylarında isə az sululuğu ilə səciyyələnir. Lənkərançayın suyundan torpaqların suvarılmasında geniş istifadə olunur. Çayın qidalanmasında yağış sularının rolu xüsusilə böyükdür (80-100%). Qar suları 10% təşkil edir. Orta illik su sərfı 14.2 $m^3$/san-dir. Lənkəran məntəqəsinin məlumatına əsasən çayda çoxillik dövr üçün yaz, yay, payız və qış fəslində su sərfinin gedişi qrafiki tərtib edilmişdır (şəkil 1-4). Qrafiklərə əsasən çoxillik dövr ərzində su sərfinin gedişi fərqlidir, yay fəsli üçün su sərfinin gedişində elə bir dəyişiklik müşahidə edilmir. Yaz, payız, qış fəsilləri üçün isə azalma müşahidə olunur. Ən çox azalma payız fəsli üçün xarakterikdir.

Yaz fəsli üçün su sərfinin maksimum qiyməti 1964-cü ildə 40.1 $m^3$/san, minimum qiyməti isə 1958-ci ilə düşür (2.82 $m^3$/san). Qrafikin gedişinə əsasən, demək olar ki, axım azalıb. Yayda isə hövzəyə düşən yağıntıların miqdarı azaldığından axım da azalır. Maksimum qiymət 8.82 $m^3$/san (1963), minimum qiyməti 0.25 $m^3$/san-dir (1952). 1950-2004-cü illərin müşahidə dovrü ərzində axımda xeyli azalma müşahidə olunur, bu fəsil üçün maksimum qiymət 1958-ci ildə müşahidə edilib (53.7 $m^3$/san). Ümumiyyətlə, payız fəsli Lənkərançayın çox bolsulu olduğu vaxtdır. Qışda isə maksimum qiymət 1971-ci ilə (22.8 $m^3$/san) təsadüf edir. Axımın formalaşmasında landşaftın təsirinin daha çox olduğu ortaya çıxır [4].

Lənkərançayda çoxillik dövr üçün axımın miqdarı azalır. Buna səbəb son 30 ildə Lənkərançay hövzəsində meşələrin intensiv qırılması, ərazilərin sürətlə mənimsənilməsidir. Digər tərəfdən iqlimin dəyişməsi, azonallıq, eroziyaya məruz qalmış ərazilərin kəskin artması ilə nəticələnir. Ərazidə antropogen təsir nəticəsində torpaqların münbitliyinin azalması da müşahidə olunur.

Cədvəl 1

## Lənkəran təbii vilayəti çaylarının sutoplayıcı hövzəsində landşaft tiplərinin kəmiyyət göstəriciləri

| № | Çay | Çayın uzunluğu L, km | Su toplayıcı hövzənin sahəsi F, $km^2$ | Çay hövzəsində üstünlük təşkil edən landşaft tipləri | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | Dağarası düzənlik və ovalıqların yarımsəhra landşaftları | | Dağarası düzənlik və ovalıqların çəmən-meşə landşaftları | | Dağətəklərin çöl (qismən meşə-çöl) və quru-çöl landşaftları | | Alçaqdağlığın enliyarpaqlı meşə landşaftları | | Ortadağlığın enliyarpaqlı meşə və meşədən sonrakı çəmən-kolluq landşaftları | | Ortadağlığın dağ-kserofit landşaftları | |
| | | | | Sahəsi F, $km^2$ | Növlərin sayı n | Sahəsi F, $km^2$ | Növlərin sayı n | Sahəsi F, $km^2$ | Növlərin sayı n | Sahəsi F, $km^2$ | Növlərin sayı n | Sahəsi F, $km^2$ | Növlərin sayı n | Sahəsi F, $km^2$ | Növlərin sayı n |
| 1 | Mişarçay | 39 | 125 | 0.32 | 3 | - | - | 0.68 | 3 | - | - | - | - | - | - |
| 2 | Göytəpəçay | 50 | 213 | 0.41 | 4 | - | - | 0.59 | 2 | - | - | - | - | - | - |
| 3 | Viləşçay | 106 | 1085 | 0.16 | 6 | 0.10 | 2 | 0.07 | 1 | - | - | 0.37 | 4 | 0.30 | 3 |
| 4 | Boladıçay | 36 | 118 | - | - | 0.92 | 7 | - | - | 0.18 | 1 | - | - | - | - |
| 5 | Lənkərançay | 70 | 1100 | - | - | 0.10 | 4 | - | - | 0.14 | 2 | 0.45 | 3 | 0.31 | 1 |
| 6 | Təngərüçay | 48 | 273 | - | - | 0.36 | 4 | - | - | 0.23 | 1 | 0.40 | 1 | 0.01 | 1 |
| 7 | İstisuçay | 17 | 69 | - | - | 0.68 | 2 | - | - | 0.13 | 1 | 0.17 | 1 | 0.02 | 1 |




**Şək. 1.** Lənkərançayın (Lənkəran m) çoxillik dövr üçün yaz fəslində su sərfinin gedişi qrafiki və xətti trendi.




**Şək. 2.** Lənkərançayın (Lənkəran m) çoxillik dövr üçün yay fəslində su sərfinin gedişi qrafiki və xətti trendi.




**Şək. 3.** Lənkərançayın (Lənkəran m) çoxillik dövr üçün
payız fəslində su sərfinin gedişi qrafiki və xətti trendi.




**Şək. 4.** Lənkərançayın (Lənkəran m) çoxillik dövr üçün
qış fəslində su sərfinin gedişi qrafiki və xətti trendi.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikası. Ekoloji atlas, Bakı, 2009, 156 s.
2. Müseybov M.A. Azərbaycanın fiziki-coğrafiyası. Bakı, 1998, 399 s.
3. Məmmədov M.Ə., İmanov F.Ə. Ümumi hidrologiya. Bakı: Bakı Universiteti, 2003, 230 s.
4. İmanov F. Ə. Çay axımı. Bakı: Bakı Universiteti, 2002, 208 s.
5. Süleymanov M. Ə., Əliyeva İ. S. Landşaftşünaslığın əsasları. Bakı: “Bakı Universiteti” nəşriyyatı, 2008, 400 s.

## ВЛИЯНИЕ ЛАНДШАФТОВ НА ФОРМИРОВАНИЕ РЕЧНОГО СТОКА В ЛЕНКОРАНСКОЙ ПРИРОДНОЙ ОБЛАСТИ

**И.С.АЛИЕВА, С.М.ИСКЕНДЕРОВ**

### РЕЗЮМЕ

В статье на основе анализа выявлены типы ландшафтов и их влияние на формирование речного стока. Определен наиболее распространенный тип ландшафта в отдельных речных бассейнах.

**Ключевые слова:** река, сток, бассейн, типы ландшафта.

## THE ROLE OF THE LANDSCAPE IN THE FORMATION OF RIVER FLOW

**I.S.ALIYEVA, S.M.ISGANDAROV**

### SUMMARY

The article defines the landscape types and their impacts on the formation of river flow. The widemost spread landscape types in several river basins are analyzed as well.

**Key words:** river flow, landscape type, basin.

*Redaksiyaya daxil oldu: 05.10.2011-ci il.*
*Çapa imzalandı: 16.01.2012-ci il.*